Şərqi Zəngəzurdan reportaj

# Qurtuluşu Laçında qeyd edənlər...

## Laçınlılar bu cənnət diyarı onlara qaytaran Müzəffər Ali Baş Komandanı alqışlayırlar







**...Bu yaraşıqlı, gözəl evləri, bu güllü-çiçəkli həyətimizi görəndə gözlərimə inanmadım. Dedim ki, İlahi, bu nə hikmətdir, sən mənə bu dünyada sağ ikən cəhənnəmi də, cənnəti də göstərdin. 30 il bundan əvvəl biz həyatımızda cəhənnəm əzabı yaşadıq. 30 il bundan əvvəlki Azərbaycanla indiki Azərbaycanı müqayisə etsək, fərq elə cənnətlə cəhənnəm qədərdir. Heydər Əliyevin oğlu İlham Əliyev isə bizə bu dünyada cənnəti də göstərdi...**





**...Zamanı geri döndərmək mümkün deyil. Yalnız xatirələrdə geri qayıda bilirik. Bu dünyanın yaxşısı da, pisi də tarixə yazılır, yaddaşlarda qalır. Azərbaycanda elə bir ailə tapılmaz ki, 30 il bundan əvvəl də, elə indi də əllərini göyə qaldırıb Yaradana bu gün üçün şükür deməmiş olsun...**
**Bu gün Qurtuluş Gününü Laçında Təhməzovlar ailəsində qeyd edirik...**

### Laçın işğal olunan gün AXC Bakıda bayram edirdi

Ailənin başçısı İpək xanım deyir ki, nə yaxşı keçmişə qayıtmaq olmur. Əgər mənə desələr ki, keçmişi istəyirsən, yoxsa gələcəyi, məmnuniyyətlə gələcəyi seçərdim. Keçmişdə nə gördük ki? Ölüm, qan-qada... Qardaş-qardaşa silah qaldırırdı. Ermənilərin gündə bir kəndimizi işğal etməsini bir kənara qoyaq, qardaş qırğınının bir addımlığındaydıq. O illəri yada salanda adam az qalır ki, dəli olsun. Nə yaxşı ki Allah Heydər Əliyevi bu millətə bəxş etdi. Nə yaxşı ki Heydər Əliyev bu xalqa sahib çıxdı... Əgər bilsəm ki, yenə o günlər təkrar olacaq, inanın ki, o dəqiqə canıma qıyaram...

Laçından əliyalın, ayağıyalın, bir yaylığımızı götürüb çıxmışdıq. Göydən od ələnirdi. Cavanlarımız bizi - namuslarını qorumaq üçün canlarını düşmənə sipər etmişdilər. Düşmən evimizi, illər boyu zülmlə topladığımız nəyimiz vardısa oda qalamışdı. Buradan çıxarkən dönüb geri baxanda yalnız yanan evlərimizin tüstüsünü görürdük.

Eşidəndə ki Laçına qayıdırıq, gözlərim önündə o mənzərə təkrar canlandı. Anaların ahından, qız-gəlinlərin naləsindən qulaq tutulurdu. Düzünü deyim ki, qayıtmaq istəmirdim. Deyirdim, gəlib o xarabalıqları görüb, o illərin acı xatirəsini təkrar yaşayacağam.

İndi bir ətrafa baxın, Laçın bir cənnətdir. Bu yaraşıqlı, gözəl evləri, bu güllü-çiçəkli həyətimizi görəndə gözlərimə inanmadım. Dedim ki, İlahi, bu nə hikmətdir, sən mənə bu dünyada sağ ikən cəhənnəmi də, cənnəti də göstərdin. 30 il bundan əvvəl biz həyatımızda cəhənnəm əzabı yaşadıq. 30 il bundan əvvəlki Azərbaycanla indiki Azərbaycanı müqayisə etsək, fərq elə cənnətlə cəhənnəm qədərdir. Heydər Əliyevin oğlu İlham Əliyev isə bizə bu dünyada cənnəti də göstərdi. Bundan sonra ölsəm də dərdim yoxdur.

Beş nəfərdən ibarət Təhməzovlar ailəsi doğma yurda dönən ilk 20 ailədəndir. Ailə 31 illik qaçqınlıq həyatını Pirəkəşküldə hərbi şəhərciyin yataqxanasında dar, şəraitsiz otaqlarda keçirib.

Söhbətə İpək xanımın oğlu Gündüz Təhməzov qoşulur. Şuşa işğal edildikdən sonra Laçın mühasirəyə düşmüşdü. Ermənilər həm Şuşa tərəfdən, həm də Gorus istiqamətindən, Zabux tərəfdən şəhərə hücum edirdilər. Dığ kəndində yerləşdirdikləri uzaqvuran toplarla şəhəri artilleriya atəşi altında saxlayırdılar. Ordu deyilən bir şey yox idi.

18 iyun - Laçın işğal olunan gün Bakıda bayram idi. Cəbhəçilər hakimiyyətə gəlmələrini qeyd edirdilər. Biz isə od-alovun içində, ayaqyalın, sahibsiz canımızı götürüb dədə-baba yurdumuzu tərk etmək məcburiyyətində qalmışdıq. Hara gedəcəyimizi, nə edəcəyimizi kimdən soruşmağı belə bilmirdik. Allah sanki, bizi sınağa çəkirdi. Buradan birtəhər Pirəkəşkülə getdik, orada hərbçilərin yataqxanasında yerləşdik.

1993-cü il iyunun 15-də Heydər Əliyev hakimiyyətə gələndə çox sevindik. Evimizdə əsl bayram abhavası var idi. Bilirdik ki, Heydər Əliyev bizi təkrar yurdumuza qaytaracaq. Sevinirdik ki, nəhayət, bizim də rəhbərimiz var...

Biz Qurtuluş gününü tək bu gün qeyd etmirik. Bu günü əsl bayram hesab edərək hər il xüsusi qeyd etmişik. Bu gün bizim üçün ikiqat bayramdır.

İndi Laçındayıq... Öz evimizdəyik. O evdə ki, 31 il əvvəl burada ürəyimizi qoyub getmişdik. Deyirlər ki, dövlət başçısını yuxuda görən adamın evindən bərəkət əskik olmaz. Həyatımız yuxu kimi olsa da, gördüklərimizə hətta özümüz inanmasaq belə, dövlətimizin başçısı evimizdə qonağımız oldu. Bu evin açarlarını özü bizə təqdim etdi.

### Belə bir evimizin ola biləcəyini xəyal etmirdik

Ailənin böyük övladı Həsən deyir ki, biz gözümüzü dar, heç bir şəraiti olmayan otaqda açmışıq. Elə bilirdik ki, dünya o dar otaqdan ibarətdir. İnsan gördüyünə inanır. Nənəm, valideynlərim Laçından, onun gözəl təbiətindən danışanda bizə çox qəribə gəlirdi. Elə bilirdik ki, valideynlərimizin təsvir etdiyi gözəlliyi yalnız kinolarda görmək olur. Ona da hansısa xarici ölkədə çəkilmiş filmlərdə rast gəlmək mümkündür.

İndi Laçındayıq. Xəyal belə edə bilməyəcəyimiz gözəl evimiz var. Həyətimizdə yaradılan şəraiti görəndə özümüz də təəccüblənirik. İnanın, günlərdir burada yaşasaq da, bu evin, bu gözəlliyin bizim olduğuna hələ də inana bilmirik. Biz gerçək mənada özümüzü cənnətdə hesab edirik. Sinif yoldaşlarımıza, dostlarımıza şəkillər çəkib göndəririk. Dostlarımıza deyirik ki, biz Laçında yox, cənnətdə məskunlaşmışıq. İndiyə kimi özümüzü, perspektivsiz, dünyanın ən imkansız uşaqları hesab edirdik. Elə zənn edirdik ki, yaşadığımız o həyat ömürlük bizə yoldaşdır. İndi dünyanın ən xoşbəxt uşaqlarıyıq.

Prezidentimiz həyatımızı dəyişdi, bizi xoşbəxt etdi. Bunun borcu ödənilməz, haqqı verilməz. Biz öz ölkəmizdə olsaq da, vətənsiz vətəndaşlar idik. İndi gözəl evimiz, cənnətə bənzər Laçınımız var. Bizə bu gözəlliyi verdiyi üçün Prezidentimizə minnətdarıq.

Söhbətimizi Gündüzün həyat yoldaşı Arifə xanımla davam etdiririk...

- Pirəkəşküldə şəhid Həsən Qorçiyev adına Səfyan kənd orta məktəbində müəllimə işləmişəm. Problemlər, şəraitsizlik olan yerdə nəinki işləməyə, adamın yaşamağa belə həvəsi olmur. Laçına gəldikdən sonra özümdə çox böyük enerji, işləmək həvəsi hiss edirəm. Teztez Laçında bərpa olunan məktəbə gedib baxıram. Sentyabrda hər cür şəraiti olan Laçın məktəbində çalışacağam. Bu, Prezidentimizin laçınlı uşaqlara, müəllimlərə böyük hədiyyəsi olacaq. Prezidentimizə bu gözəllikləri təkrar qaytardığı, bizi cənnətin sakinləri etdiyi üçün minnətdarlığımızı bildirirəm.

### Biz ikinci dəfə dünyaya gələnlərdənik

Laçına ilk dönən sakinlərdən Ramiz və Ülkər İsayevlər bizi çay süfrəsinə dəvət edirlər. Sevinclərini, xoşbəxtliklərini bizimlə bölmək istəyən ailənin qonağı olmağı qərarlaşdırırıq.

Ramiz İsayev deyir ki, biz ölüb yenidən dirilmişik desək, inanmazsınız. Laçını tərk edəndə ruhumuzu, düşüncəmizi də burada qoyub getmişdik. İlk günlər Laçınsız özümüzü yox hesab edirdik. Ulu Öndər hakimiyyətə qayıtdıqdan sonra içimizdə bir ümid çırağı yandı. İllərdir o ümidin işığında yol gəlirdik.

2020-ci ildə müharibə başlayarkən Prezidentimizin xalqa müraciətini eşidəndə bu qətiyyəti görüb dedim ki, biz Laçına qayıdacağıq. Bu qəzəbli yumruq düşmənə həddini bildirmək üçün düyünlənib. Çox şükürlər olsun ki, biz indi 31 il bundan əvvəl düşmənə təslim etdiyimiz Laçındayıq.

Elə bilirdim ki, Laçın bir də bizə qucaq açmaz. Laçın bizdən küsüb. Prezidentimiz Laçını yenidən bərpa etməklə bizdən küsmüş Laçınla bizi barışdırdı. Həmişə deyirdim ki, Laçına bir də qayıda bilsəm ayaqyalın, sürünə-sürünə qayıdaram o yerlərə.

### Ağlaya-ağlaya çıxmışdıq, gülə-gülə qayıtdıq

Laçına qayıtmaq xəbərini eşitdikdə oturub sevincimdən ağladım. Ağlaya-ağlaya, ümidsiz, əli hər yerdən üzülüb taleyin ümidinə buraxılmış kimsəsiz insanlar kimi tərk etdiyimiz Laçına gülə-gülə, sevinclə qayıtdıq. Az qala evimizin daşını, divarını yalamaq istəyirdim. Açığını deyim ki, ev də bizim qoyub getdiyimiz ev deyildi. Bizim heç vaxt belə gözəl evimiz olmayıb. Heç belə gözəl evimiz olmasını ağlıma belə gətirməmişdim. Sağ olsun Prezidentimizi. Şah sarayına bənzər bir ev başğışlayıb bizə. Mənim qazancımla heç vaxt belə gözəl bir evə sahib olmaq mümkün deyildi.

İşlə də təmin olunmuşam. Abadlıq və yaşıllaşdırmada çalışıram. Özümü xoşbəxt hesab edirəm ki, Laçını sonuncu tərk edib birinci Laçına dönənlərdənəm. Həm də Laçının bərpa və quruculuğunda iştirak edirəm. Mən Prezidentimizə bizi yalnız Laçına qaytardığına görə yox, həm də bizi yenidən həyata qaytardığına görə minnətdaram. Laçınsız keçən ömrü ömrümüzdən sanmıram. Bu günü bizə yaşadanlara "var olun" deyirəm.

Ramizin ömür-gün yoldaşı Ülkər xanım deyir ki, Bakıdakı qonşularımız zəng vurub soruşurlar ki, siz hara köçmüsünüz, harada yaşayırsınız? Cavab verirəm ki, biz indi cənnətin sakinləriyik. Cənab Prezident bizə yalnız Laçını qaytarmayıb, həm də bundan sonrakı ömrümüzü cənnətlə mükafatlandırıb. Bizə bu şəraiti yaradan Prezidentimizə alqış edirik.

### Sərkərdə igid olsa, verməz ordunu bada

31 illik ayrılıqdan sonra Laçına dönənlər arasında laçınlı gənclərin sevimli müəllimi Solmaz müəllimə də var.

Solmaz Abbasova deyir ki, biz təkrar bu dünyaya gələ bilsək, yeni bir ömür yaşamaq imkanı qazansaq da, Prezidentin, dövlətin borcunu verə bilmərik. 37 yaşım vardı Laçını tərk edəndə. Güllə başımıza dolu kimi yağırdı. Yoldaşım həmin gün Laçında deyildi. 3 uşaqla Laçını tərk edirdim.

Uşaqların böyüyü Könül idi. Adillə Müşviqin yaşı çox az idi. Müşviqin cəmi 7 yaşı var idi. Könül mənimlə uşaqlara təsəlli verirdi. O sakitləşdirirdi qardaşlarını. Qaçqınlıq həyatında təkcə Laçın həsrətini çəkmədik. Həm də Könülümüzü itirdik. Amma ümidimizi itirməmişdik. Laçına qayıdacağımız günə inanırdım. Prezidentimizə, qətiyyətinə inanırdım. Belə bir sərkərdənin, bu cür ürək sahibinin düşmənə torpaq verməyəcəyinə güvənirdim. Pisi görməsən, yaxşının qədrini bilməzsən. Biz Azərbaycanın sahibsiz günlərini də gördük, şükür, bu qüdrətli, güclü Azərbaycanda da yaşamaqdayıq.

Mən müəlliməm, ziyalıyam. Atalar sözlərinin, bayatıların elə belə yaranmadığını, xalqın qan yaddaşından süzülüb gəldiyini yaxşı bilirəm. Əbəs yerə deməyiblər ki, "Sərkərdə igid olsa, verməz ordunu bada". İlham Əliyev xaraba qalmış yurdlarımızı cənnətə çevirir. Ailəm, nəvələrim və öz adımdan Laçını, Qarabağı düşmənə gözdağı edən Prezidentimizə minnətdaram.

Biz Laçından dönəndə artıq hava qaralırdı. Dağların döşündə məskən salmış evlərin, Laçının küçələrinin işıqları yanırdı. Sanki göydən ulduzlar tökülmüşdü Laçın dağlarına...

İllərdir qaranlığa qərq olmuş Laçında indi işıq yanır, nur şölələnirdi..

Bu büsatı yaradana sakinlər bir ağızdan "Yaşa Prezidentim, yaşa", - deyirdilər...

**(ardı var)**

***Elşən QƏNİYEV,***
***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

*Bakı-Laçın-Bakı*



**...Ağlaya-ağlaya, ümidsiz, əli hər yerdən üzülüb taleyin ümidinə buraxılmış kimsəsiz insanlar kimi tərk etdiyimiz Laçına gülə-gülə, sevinclə qayıtdıq. Az qala evimizin daşını, divarını yalamaq istəyirdim. Açığını deyim ki, ev də bizim qoyub getdiyimiz ev deyildi. Bizim heç vaxt belə gözəl evimiz olmayıb. Heç belə gözəl evimiz olmasını ağlıma belə gətirməmişdim. Sağ olsun Prezidentimizi. Şah sarayına bənzər bir ev bağışlayıb bizə. Mənim qazancımla heç vaxt belə gözəl bir evə sahib olmaq mümkün deyildi...**









**...Laçına qayıdacağımız günə inanırdım. Prezidentimizə, qətiyyətinə inanırdım. Belə bir sərkərdənin, bu cür ürək sahibinin düşmənə torpaq verməyəcəyinə güvənirdim. Pisi görməsən, yaxşının qədrini bilməzsən. Biz Azərbaycanın sahibsiz günlərini də gördük, şükür, bu qüdrətli, güclü Azərbaycanda da yaşamaqdayıq.**
**İlham Əliyev xaraba qalmış yurdlarımızı cənnətə çevirir. Ailəm, nəvələrim və öz adımdan Laçını, Qarabağı düşmənə gözdağı edən Prezidentimizə minnətdaram...**





